# BƏŞƏRİ İDEALLAR ŞAİRİ NİZAMİ GƏNCƏVİ

*(Əvvəli ötən saylarımızda)*

*(Nizami Gəncəvi - 880)*

Türk etnokulturoloji sisteminin formalaşma prosesini sərgiləyən tarixi-mədəni potensiya Nizamidə bütün aspektləri ilə təzahür edir.

O zamandan ki, qələm yazı yazdı, dürr saçdı,
Bu dünyanın gözünü ən gözəl sözlə açdı.
lə qazandı kainat bu şöhrəti,
Bir bu qədər dedilər, azalmadı qiyməti.
Söz eşqin lüğətində öz canımızdır bizim.
Biz sözük, bu bədənsə eyvanımızdır bizim.

Dünyanın yaranışında ilk cilvələnən gözəlin söz olmasını diqqət önünə gətirən şair bütün yazdıqları timsalında "Xəmsə"nin tipologiyasını da cızır. "Sirlər xəzinəsi"ndə ortaya qoyulan tipologiya bütövlük və ayrı-ayrı hekayələr timsalında həm də bir orijinallıqla müəyyənləşir. Çünki poemanın bütövlük modeli ilə ayrı-ayrı hekayələrin ortaya qoyduğu bitginlik mənzərəsi bütün istiqamətlərdə orijinallığı sərgiləyir. Xalq yaddaşında olanlarla süslənmiş bu nümunələr (hekayətlər) orta əsrlərin bədii düşüncəsini yüz illər boyu izləməklə, həm də bəşərilik xarakterini (məzmununu) diqqət önünə gətirmişdir. "Kərpickəsən kişinin dastanı", "Nuşirəvan və bayquşların söhbəti", "Süleyman və əkinçi", "Sultan Səncər və qarı", "Firidun ilə maralın dastanı", "Meyvəsatanla tülkünün nağılı", "Tövbə sındıran zahidin dastanı", "İsa peyğəmbərin dastanı", "Nəzər sahibi bir möbidin dastanı", "Bir-birilə çəkişən iki həkimin dastanı", "Yaralı bir uşağın dastanı" və s. hər birisi ayrılıqda əxlaq və mənəviyyat örnəyi olmaqla orta əsrlərin dərinliklərinə işıq tutur və bütün zamanların nümunəsi olmaq gücündə görünür. Neçə yüzillikləri günümüzə doğru addımlayıb müxtəlif səviyyələrdə yaddaşlarda öz izini qoyan bu dastan-hekayətlər bundan sonra da neçə yüzilliklərə də eyni (bir qədər də çox) təsirdə və əhəmiyyətlikdə hökmfərmanlıq edəcəyi qənaətini doğurur. Mövcud hekayətlətlərdə nəzərə çarpan təhkiyə bir nağıl, dastan, rəvayət örnəyi qədər mükəmməl olub folklor örnəyi kimi yaşamaq və yaşarlıq qazanmaq gücündə əhəmiyyət daşıyır. N.Gəncəvi bunlarla həm də özünün folklorlaşma statusunu müəyyənləşdirir. Bütün bunların nəticəsidir ki, şairin yaradıcılığı folklorşünaslıq xəttində sistemli yanaşmaların, təhlillərin mövzusuna çevrilmişdir. Hekayətlərin adına çıxan nağıl, dastan terminləri, eləcə də "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə" daxilindəki əhvalat və hekayətlərin formalaşdırdığı təsəvvür, məsələn, "Yeddi gözəl"də yeddi gözəlin söylədiyi nağıllar Nizami yaradıcılığının tipologiyası timsalında ədibin xüsusi sənətkar statusunu və imkanlarını diqqət önünə gətirir. Ümumiyyətlə, "Xəmsə" bir bütöv olaraq həm də məzmunu ilə folklor hadisəsi ola bilmə gücündə əhəmiyyət qazanır, "Şərq əfsanə yazanların Şeyxi" təsəvvürünün formulasını bütün tərəflərilə özündə faktlaşdırır.

Eşitdim bir yoxsul ciyər qanilə,
Köhnə bir əşrəfi keçirdi ələ.
Ona söyləmişdi varlı kimsələr,
"Zəri zər, xəzinə xəzinə çəkər" (3, 43).

Bütün məzmun və mahiyyəti ilə xalq təfəkküründə olanlara bağlanan Nizami dünyagörüşü epos zənginliyində elə var-gəllər edir ki, onun ifadə modelləri digər folklor örnəklərini də özündə ehtiva etmək gücündə görünür. Nağıl, əfsanə, rəvayət, atalar sözü, məsəl, xalq mərasimi, inam və etiqadları hamısı bu formaya bir çeşni olaraq düzülür və həm də nitq etiketləri, söz və misra sıralanmasının yaratdığı dalğalanmalarda əlavə müdriklik ovqatı ortaya qoyur. Əfsanə yazanların şeyxi olmanı uğurlu bir formada, filosofluq və mürşidlik statusunda bütövləşdirir.



Bir toz görünsə də hər zərrə əgər,
Dünya pərdəsində o da iş görər.
Təbiət quranda xilqətimizi,
Başqa səhifədə yazmışdır bizi.
Anlayıb düşünək hər şeyi gərək,
Hər sirri açmaqla hünər göstərək.
Yerləri, göyləri öyrənək bir-bir,
Qalmasın bizimçün açılmamış sirr.(3, 199-200).

Şərq intibahının hadisəsi olaraq diqqət önünə gələn Nizami yaradıcılığının genelogiyası bütünlükdə etnokulturoloji sistemə bağlanmaqla, həm də bir missiya olaraq oradan çıxış etməyə köklənir. Ədibin düşüncə intelleksiyası yaradıcı istedadının parlaqlığında elə problemlərə köklənir ki, hansısa bir zaman və coğrafi məkan səviyyəsində ümumiləşdirmək olmur, əksinə daha geniş sferada, bütün zamanların və bütün məkanların, daha doğrusu, bütünlükdə dünya evinin diqqətində olan kimi əsasa çevrilir. Ona görə də N.Gəncəvi yaradıcılığı sərhədsiz və məkansızdı, öz mahiyyətində bəşəriliyi ehtiva etmək və onu əhatələmək gücü, istəyi ilə yaşarlıq qazanır. Fövqəlzamanlıq və fövqəlməkanlıq statusunda şairin yaradıcılığının sərgilədiyi təsəvvür məhz ona olan marağı birə ona qat artırmaqla yanaşı, həm də dedikləri səviyyəsində Nizami fenomenliyinin spektrlərini müəyyənləşdirmişdir. Son olaraq "Nizami hər sözü demiş birinci" təsəvvürünü bütünlükdə Şərq və dünya ədəbiyyatı səviyyəsində etirafa gətirmişdir. Bütünlükdə qədim türk epos təfəkkürünün ortaya qoyduğu mənzərə Nizaminin təfəkkür intelleksiyasında yeni məzmun və mahiyyət kəsb etməklə dolğunlaşmış, yazı mühitində gediləcək yolun ümumi axarını müəyyənləşdirmişdir. "Nizami yaradıcılığındakı rasionalizm, hər şeydən əvvəl, qədim türk eposundakı "naturalizm"dən gəlir - hadisələrin epik təmkinlərlə təsviri, xarakterlərin fundamentallığı, irəlicədən müəyyənləşdirilməsi, təbiiliyi və s. bunun nəticəsidir. "Alp Ər Tunqa", "Oğuz Kağan", "Göy türk", "Köç" və s. qədim türk dastanlarının qalıqları üzərindəki müşahidələr göstərir ki, qədim türk eposu humanist, çevik və obrazlı təfəkkürün məhsuludur - həmin təfəkkür "Xəmsə"də təkcə İslamlaşmamış, həmçinin islamı özünə tabe etmişdir.

"Xəmsə"nin əsas qəhrəmanı ideal (tədricən ideallaşan) hökmdardır: "Sirlər xəzinəsi"ndən "İsgəndərnamə"yə qədər Nizamini getdikcə daha dərindən və şübhəsiz, daha geniş problemlər kontekstində düşündürən bu ideya qədim türk eposunun mərkəzində dayanır. Xosrov, Bəhram, xüsusilə İsgəndər qədim türk eposunda mürəkkəb tarixi-ideal təkamülün faktı kimi müəyyənləşmiş "epik qəhrəman"ın varisidir - həmin qədim türk eposunun, həm də "Xəmsə"nin "epik qəhrəman"ı dünyada universal nizam yaratmaq cəhdinin ifadəsinə xidmət edir" (2, 42-43)."Xəmsə"nin müəyyənləşdirdiyi metadologizmdən bütümlükdə bədii yaradıcılığında boy göstərən sistemə qədər hamısı tarixi-mədəni axarın yeni mərhələsinin (XII əsr intibahının) faktı olaraq diqqət önünə gəlir.Şairin lirik poeziyası ilə epik yaradıcılığının təmkinlilik və emosionallıq, fikir axarı fərqli istiqamətləri deyil, əksinə tamamlayıcı funksiyanı yerinə yetirməklə daxilində mükəmməlliklə görünə biləcək boyartımını faktlaşdırır. Türk təfəkkür tipində müəyyənləşmiş yaradıcılıq texnologiyası epik təhkiyyənin qəlibləşmiş yazı modellərini Niazmi timsalında ümumşərq intibahına təqdim edir. İslamlaşma kontekstində gedən tarixi-mədəni, bədii-estetik proses onun diferensasiyası ilə öz bətnində tipologiyasını da reallaşdırır. Mədəni qəhrəman funksiyasında Nizaminin "Xəmsə" qəhrəmanları "Sirlər xəzinəsi"ndə sadalananlarla ("Nuşirəvan və bayquşların söhbəti", "Süleyman və əkinçi", "Sultan Səncər və qarı", "Firidun ilə maralın dastanı", "İsa peyğəmbərin dastanı", "Nəzər sahibi bir möbidin dastanı", "Özündən naümid padşahın dastanı", "Harunərrəşidlə dəlləyin dastanı" və s.) "Xosrov və Şirin"də Xosrov, "Yeddi gözəl"də Bəhram, "İsgəndərnamə"də İsgəndər timsalında ideallaşdırmaya bağlanır. Bunun isə məzmununda xalq və hakimiyyət, toplum təsəvvürləri, etnosun ruhani dünyasında olanlar, həyat həqiqətləri və istəkləri dayanır və bir bütöv olaraq əksetdirmə məqsədi daşıyır. "Xəmsə"nin epik qəhrəmanları bütünlükdə türk və ümumişərq timsalında olanları diqqət önünə gətirməklə, həm də bəşəriliyi sərgiləyir. Ümumiyyətlə, Nizaminin türk və ümumşərq kontekstində ortaya gətirdikləri bəşəri xarakteri ilə fövqəlzamanlılığa və fövqəlməkanlılığa yüklənir. Bütün bunlar N.Gəncəvinin bəşəri ideallar şairi kimi hansı ucalığa kökləndiyini aydınlaşdırır.

## ƏDƏBİYYAT


1. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I c., Bakı, Elm, 1960, 590 s.
2. Cəfərov N. Klassiklərdən müasirlərə. Bakı: Çaşıoğlu, 2004, 272 s
3. Gəncəvi N. Azərbaycan klassik ədəbiyyat kitabxanası. IV c., Bakı: Elm, 1985, 640 s.
4. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Yazıçı, 1986, 445 s.
5. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr, 1991, 232 s.
6. Səfərli Ə., Yusifli X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Ozan, 1998, 632 s.
7. Vurğun S. Seçilmiş əsərləri. 2 cilddə, I c., Bakı: Azərnəşr, 1976, 288 s.


*Mahmud ALLAHMANLI,*
*filologiya elmləri doktoru,*
*professor*